

*MUSTAFA ÇƏMƏNLİ*

# DUYĞULAR – DEYİMLƏR

İlahi, gör ömrümün günləri necə sürətlə keçir...Hər açılan səhərdən ömrümə nəsə yazmaq istəyirəm.

***

Sənə irad tutmağım nəticə etibarı ilə sənin xeyrinədir. Amma sonda sənin ürəyində hörmətini itirən mən olacam.

***

Ağa Məhəmməd şah Qacarın axtalığı - fizikidir. O əsl kişidir.

***

Boy uca, gözlər qəşəng, di gəl rəftarı erkək rəftarı. Sözü içindən keçirib demir, sözün üstündən keçib deyir.

***

Soruşdum:
-Sən insanın çiçəkləməsini görmüsənmi?
-Yox- dedi.
-Təəssüf. Sən özün bu gözəl bahar çağında çiçəkləmisən, əzizim.

***

Çoxluq içində darıxdım. Müğənniyə pul verib oxutdular, ancaq ortalıqda içgi olduğundan ona qulaq asan olmadı.

***

Xalqa ancaq şairi, yazıçını, müğənnini... bu qədər sevdirmək, onları fetişləşdirmək nəyə lazımdır. Bizə daha çox qəhrəmanlar gərəkdir. Milrətimizə qəhrəmanlıq ruhunu qaytaraq.

***

Ruhun azadlığından böyük, daha vacib heç nə yoxdur. Ruhun AZAD deyilsə, azadlıqda olsan belə, azadlıqda deyilsən.

***

Mənə əzab verən sənin varlığın deyil, sənin təkəbürlü səfehliyindir.

***

Əl çaldırmaq üçün kütlənin səviyəsinə enmək diriykən ölməyə bərabərdir.

***

Ağıçı özgəsinin ölüsünü elə ağlayır ki, heç doğmaca atasını elə ağlamayıb.

***

Çox sifətlər, çox rənglər gördük. Amma sifətdəki saxta kədər rəngini görəndə çaşdım.

***

Həyatda erkək cildinə girən qadınlarımız artdığı bir vaxtda, doğrusu, səhnədə arvad donunu geyinməyə həvəs göstərən aktyorları başa düşə bilmirəm.

***

Öz ağır xasiyyəti ilə ərinin başını ağartdı, sonra söylədi ki, ağ saçlardan xoşum gəlir.

***

Hər gün nəsə yazmaq haqqında düşünürəm və yazmağa hazıram. Xoşbətlikdən heç nə yazmıram.

***

Müsibət adamdır, diriləri sevmir, dünyasını çoxdan itirmişləri tərifləyir.

***

Bir vaxtlar tarzən Kamil Əhmədovun Seyid Şuşinski haqqında xatirələrini qələmə alardım, indi isə onun haqqında xatirə yazıram.

***

Əlbəttə, hər bacadan baxmaq olmur.

***

Həssas danışır, həssas düşünmür.

***

Özünü itirdim, səsini yox.

***

Əsrlərə baxanda adama əlçatmaz, ünyetməz gəlir. Ancaq yadaşdan yaddaşa keçib yüzilliklərə baş vurmaq olar. Əgər mənəvi yaddaş teli qırılmayıbsa.

***

Ona o qədər yazıq gözü ilə baxıblar,yazıq olmağa vərdiş edibdir.

***

Platon yazırdı: ”Hər kəsdə hansısa qorxunc, qanunsuz və vəhşi bir arzu növü gizlənir”.

***

Güclü əllərin məngənəsində boğulan insan bu dünyanı bərəlmiş gözlərlə seyr edə bilməz.

***

Kamil adam cahil adamın yanında ağıllı görünə bilməz.

***

Alçağı adam yerinə qoyanda çaşıb adamı alçaldar.

***

Sadəliyi başa düşməyənlərə təkəbürlü olmaq gərəkdir.

***

Başa düşənin yanında sadəlik böyüklükdür.

***

Ötüb keçən hər günün budağından bar dərməyə tələs.

***

Qaranlıq gecənin bağrından siyrilib ağ günlərə çıxdım.

***

Zərif vücudunda bu güclü iradə hardandı bilmirəm.

***

Sev ki, durulasan.Gəl ey gözğörünməz eşq. Gəl ki, həyata qayıdım.

***

Dostlar, ürəyimi boşalmağa qoymayın.

***

Bu gün Xudu müəllimi andım. Bu böyük alimin sadəliyini xatırlayıb ona Allahdan rəhmət dilədim.

***

Özündənrazı adam dünyanın ən bədbəxt adamıdı.

***

Biz bu dünüyaya şəkil çəkdirməyə gəlmişdik, çəkdirib getdik.

***

Mən səni gözlərimlə oğurlayıb apardım.

***

Dahi Üzeyir bəy yazırdı: ”Bir millətin ki, dili batdı, onda o millətin özü də batar. Üçünki bir millətin varlığına, isbati-vücud etməsinə səbəb onun dilidir.” Biz xalq olaraq Üzeyir bəyin bu kəlamlarını sırğa edib qulağımızdan asmalıyıq.

***

Xanəndə Əbülfət Əliyevlə görüşəndə məsəl çəkərdi:
-Taxt mənimdi, üstündə yatmıram altında yatıram.
-Babalarımızın bir atı, bir xəncəri vardi, torpağı bununla qoruyurdu.

***

Məsəldi, bablı babıynan, atlaz qabıynan.

***

Sözün ürəyimdə göyərdi.

***

Sözü özündən göyçək.

***

Dünya yaranandan kişi qadından, qadın kişidən baş açmağa çalışır. Bir birinə möhtac, bir birini tamamlayan bu iki varlıq həmişə axtarışda, dərk etmək, anlamaq amacındadır.

***

Zahiri gözəlliyinə görə sən ancaq Yaradanına borclusan. Əsl gözəllik sənin ruhunda olmalıdır.

Avqust, 2022

ədalət.- 2022.- 17 sentyabr.- S.5.